# "Akademik" statusu verilən Musiqili Teatr və Rus Dram Teatrı Prezidentə təşəkkür edib





Prezident İlham Əliyev S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrına və Azərbaycan Dövlət Musiqili Teatrına "akademik" statusu verilməsi haqqında Sərəncam imzalayıb.

5 mart 2019-cu il tarixli Sərəncama əsasən, hər iki teatra "akademik" status verilib. Sərəncamda statusun on beş gün müddətində təmin edilməsi Nazirlər Kabinetinə tapşırılıb.

Bu münasibətlə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında kollektivin geniş heyətdə yığıncağı keçirilib. Yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə teatr kollektivi adından müraciət qəbul edilib. Müraciətdə deyilir:

"Möhtərəm cənab Prezidentimiz! Sizin 05 mart 2019-cu il tarixində "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında" imzaladığınız Sərəncam Azərbaycan Dövlət Musiqili Teatrının kollektivinə - ölkənin sevimli teatr ailəsinə verilən yüksək qiymətinizin bariz nümunəsidir. Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını bir daha təsdiq edən bu rəsmi sənəd qəlbimizdə fərəh hissi doğurur. Sizin və ölkənin Birinci Vitse-Prezidenti, çox hörmətli Mehriban xanım Əliyevanın hər bir azərbaycanlı ailəsinin güzəranını daha xoş, sabahını daha gözəl və xoşbəxt etmək naminə yürütdüyü uğurlu siyasət Azərbaycanın böyük inkişaf yolu keçməsinə, ölkəmizin bütün sahələrinin, o cümlədən mədəniyyət və incəsənətinin ildən-ilə inkişaf etməsinə səbəb olub. Son illər ərzində respublikamızın hər bir teatrında olduğu kimi, Azərbaycan Dövlət Musiqili Teatrında da çox böyük işlər görülüb, uğurlu nəticələr əldə edilib. Sizin diqqət və qayğınız və bilavasitə rəhbərliyiniz sayəsində Azərbaycan Dövlət Musiqili Teatrında təmir, yenidənqurma və bərpa işləri aparıldı. Şübhəsiz ki, teatr binasının təmiri və demək olar ki, yenidən qurulması yeni məkanda daha böyük yaradıcılıq işlərinin aparılmasına xidmət etdi. Əziz İlham Heydər oğlu! Səhnə fəaliyyətimizi yüksək qiymətləndirdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bundan sonra da yaradıcılıq fəaliyyətimizi, bütün qüvvə və bacarığımızı Azərbaycanımızın tanınması və şöhrət qazanması naminə, Azərbaycan teatrının şərəfli salnaməsinə yeni uğurlu səhifələr yazılması üçün sərf edəcəyik. Biz qürur duyuruq ki, Ulu Öndərimiz Heydər Əliyevin incəsənət xadimlərinə böyük qayğısı bu gün də Sizin tərəfinizdən uğurla davam etdirilir. Azərbaycan sənətçisinin, Azərbaycan ziyalısının böyük xoşbəxtliyi də elə bundadır. Bir daha yüksək diqqət və qayğı üçün Sizə sonsuz təşəkkürlərimizi yetiririk".

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının kollektivi və Prezidentin Sərəncamını böyük sevinc hisi ilə qarşılayıb.

Dövlət Rus Dram Teatrının direktoru Ədalət Hacıyevin sözlərinə görə, cənab Prezidentin Sərəncamı Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədi daşıyır.

"Qeyd edək ki, hər il Dövlət Rus Dram Teatrının repertuarına 6-7 yeni tamaşa daxil edilir. Teatr müasir tamaşaçının maraq və zövqünü nəzərə alaraq, böyüklər və kiçiklər üçün tamaşalar hazırlayır. Teatrda tamaşaların rus dilində hazırlanması ölkəmizin qonağı olan turistlərin də bu teatra maraq göstərməsinin əsas səbəbidir. Təsadüfi deyil ki, son illər teatrın tamaşaçıları arasında turistlərin sayının artması müşahidə olunur.

Bundan başqa, teatrın yaradıcı truppası vaxtaşırı MDB məkanındakı teatrların qonağı olur və beynəlxalq festivallarda iştirak edir. Repertuardakı tamaşalar tanınmış və nüfuzlu teatrların səhnəsində oynanılır ki, bu da Azərbaycan mədəniyyətinin tanınmasında böyük rola malikdir".

Kaspi.S.12.